# KAMAL ALIŞOĞLUNUN TALE YAZISI...



Tanınmış alim-pedaqoq Allahverdi İsgəndər oğlu Eminov ədəbiyyatşünaslıq və pedagoqika istiqamətində, hebelə bədii və publisistik mövzularda xeyli sayda kitabın müəllifidir. Bu günlərdə - 2018-ci ildə "Təknur" nəşriyyatında onun daha bir kitabı da işıq üz görüb. "Əllərimdə tale yazım" adlı bu monoqrafiya - esse Şair-publisist, nasir Kamal Alışoğlu İbadovun yaradıcılığına həsr olunub. Kitabın redaktoru dosent Şakir Əlifoğludur.

Müəllif kitabına aşağıdakı cümlələrlə giriş verir: "Mən Kamal Alışoğlu haqqında yazmaqda uzun-uzadı tərəddüd etmək istəmədim - o baxımdan yox ki, asan bir yaradıcılıq işidir-belə ovqatla düşünməzdim. Yaradıcılıq aktı hansı formatda, janrda, növdə olursa-olsun, çətin və mürəkkəb bir prosesdir; subyektiv, obyektiv mövcudluğu bir yana-canlı insandırsa, gözünün qarşısında fəaliyyət göstərirsə, yoldaşlıq, dostluq əlaqələri tam səmimiyyət üzərində qurulmuşsa, xeyli fikirləşirsən, şəxsiyyətini ön plana çəkirsən, yaradıcı fəaliyyətini yaddaşında canlandırırsan. Və suallardan yan keçmirsən: haradan başlayıb harada qurtarım?"..

Məncə, bu fikirlərdə həm də bir yazar olaraq alim-pedaqoq Allahverdi Eminovun özünün yazacağı mövzuya dair tərtib-plan işinin ümumi strukturu əks olunub. Yəni hər bir müəllifin yazı obyektinə baxış bucağı olur və yuxarıdakı prinsiplər də Allahverdi müəllimin yazmaq dəst-xəttini müəyyənləşdirir. Yoxsa belə olmasaydı, bir qədər sonra aşağıdakı mətləbin üstünə gəlməzdi: "Mənim ekskursiyaya yer verməyimə təsadüfi baxmayın: biz - Kamalla mən uzun illər "Maarif" Dövlət Tədris nəşriyyatında çalışmışıq can-başla, vicdanla, yeri gələndə danlana-danlana, əvəzində bərkimişik".

Bəli, deyərdim ki, A.Eminov kitabı elə bu təməl üstündə qurmaqla Alış Kamalın yaradıcılıq dünyasını oxucuların üzünə açır, onu bir insan kimi təqdim edir. Təsadüfi deyil ki, yazdığı janrı da" monoqrafiya-esse" kimi təqdim edib. Buradakı "monoqrafiya" ifadəsi kitabın tək bir adama-Kamal Alışoğluya ünvanlandığını və onun yaradıcılığını müxtəlif ölçülərdən səciyyələndirdiyini göstərir. "Esse" sözü isə təxminən "bədii oçerk" anlamında qavranılır. Bəs "oçerk" nədir deyə sual olunsa, onun da cavabı aydındır: "sənədli hekayə", yəni əsərdə təsvir olunanlar birbaşa canlı həyat həqiqətinə söykənilməklə publisistik (bir az da bədii) dilin kanonlarına salınmaqla təhkiyə olunan mətn bazası...

Bu minvalla Allahverdi müəllim həm də bir əsil pedaqoqluq nümayiş etdirməklə şair-jurnalist Kamal İbadovun yaradıcılıq aləmini onun öz şəxsi dünyası ilə üzvi vəhdətdə götürüb, ictimai aləmə tanış edir. Başqa sözlə, Kamal müəllimin həyatdakı real insani cizgiləri ilə onun yaradıcılığında proyeksiya olunmuş ədəbi-bədii obrazı bir ortaq məxrəcə gətirilməklə əsil pedaqoq ustalığı ilə birər-birər açılır və oxucuların gözündə - təsəvvüründə mükəmməl bir Kamal Alışoğlu dünyası canlandırılır. Bunu kitabın vərəqlərini gözdən keçirib səhifə-səhifə aşırdıqca bir daha aydın görüb-hiss edirik.

"Xatirələrim məni rahat buraxmır. Keçmişdə ünsiyyət bağladığım dost-tanışların, şeirlərini dinlədiyim şairlər, obrazlarını tanıdığım nasirlər gözümün qabağına gəlir, yazı masamın "qonağı" olur və qiyabi söhbətləşirəm. Belə insanlardan biri də doğma, isti, qarşılıqlı hörmətimizi qurduğumuz Kamal bəy Alışoğludur... Şərəfə, ləyaqətə, hörmətə layiq insanlara söz deyəcəksənsə tələsməlisən, dünyaya etibar etmə, ondan vəfa gözləmə. Bu həqiqətə təslim oldum və vaxta uduzmadım"... - deyərək "ön söz yerinə" yazdıqlarına yekun vuran Allahverdi Eminov bizi həyatından və yaradıcılığından görüb-tanıya bildiyi bir ədibin dünyası ilə üz-üzə gətirir: "Kamal Alışoğlunda başa düşdüyüm və yəqinləşdirdiyim bir də odur - çətin, iztirablı həyat yolu keçsə də, ruhdan düşməmişdir. Uzaq Cəbrayıl bölgəsindən Bakıya üz tutan cavan oğlan özünə-varlığına, mövcudluğuna, istedadına, qabiliyyətinə və işgüzarlığına arxalanmışdır. Onu da proqnozlaşdırmışdır ki, ruhdan düşmə gələcəyini "planlaşdıran" gənc üçün qəti yaramaz, həyat "qara" üzünü gizlətməz. Atalar demişdir: "Bəd iş, bəd-niyyət bədlik gətirər". Lakin fikrim belə bir gümanı reallaşdırmasın ki, insan hansı yaşda olursa, qəm-qüssədən, kədərdən kənarda dayanmalıdır, yox! Bu halsız insan nəyə gərək olardı. Hərçənd ağlamaq, göz yaşı adamı yeri gələndə yüngülləşdirir, sanki daxilini təmizləyir".

A.Eminov həyatla bağlı özünün pedaqoji dünyaduyumunu da izhar etməklə həyatdan tanıdığı - bir vaxtlar bir kollektivdə çalışıb-işlədiyi Kamal İbadovun yaradıcılıq aləminə astagəlliklə və ustalıqla nüfuz edir, bir pedaqoqsayağı aramla və təmkinlə danışmaqla fikirlərini ortaya qoyur. Yeri gəlmişkən, bir nüansı da qeyd edim ki, o, hər hansı bir mülahizə yürüdərkən bir pedaqoq kimi dünya mütəfəkkirlərinin də aforistik kəlamlarına müvazi olaraq müraciət edir ki, bu da söylənilən fikrin təsir gücünü artırmaqla həm də A.Eminovun üslubunu müəyyənləşdirir.

Kitabda diqqət çəkən bir məqam da "Şair Kamal Alışoğlu ilə dialoq" hissəsidir ki, burada Allahverdi müəllim bir pedaqoq ustalığı ilə maraqlı suallar fonunda Kamal müəllimin həyat və yaradıcılıq haqqındakı düşüncələrini üzə çıxardır və bu, həm də yaradıcı şəxsi oxucuya birbaşa təqdim etmək vasitəsi kimi dəyərləndirilməlidir.

Düşünürəm ki, həmin müsahibədən bir parçanı diqqətə çəksək, maraq doğurar.

"A.Eminov: - Sənin üçün poeziya nədir? Bu anlayışın elmi-ədəbi yozumunu nəzərdə tuturam. Şair poeziyaya V.Q. Belinskinin yanaşmasından baxarsa, "akademik şeirlər" yarana bilər, çəkindiyim budur. K. Alışoğlu: - Mənim üçün poeziya həyat həqiqətlərini, həyata olan baxışı, içində yaşadığımız dünyanı, xalqa olan münasibətimi, keçmişə və bu günə baxışımı müxtəlif forma və mızmunda əks etdirdiyim reallıqdır.

Bu reallığı yaradıcılıq fəaliyyətimin mənbəyi olan xarakterimlə və şəxsiyyətimlə müəyyən edərdim. Mən nə yazıramsa, əksəriyyəti həyatımla, dünyagörüşümlə bilavasitə bağlı hadisələr, dərindən duyduğum məqamlardır. Taleyimin acılı-şirinli anlarıdır...

Mənim üçün şeir təbii axarında olan göz yaşı kimi təmiz və dupduru bulaq suyudur. O zaman şeir öz-özündən elmi-bədii məzmununu tapır" .

Göründüyü kimi, şair birmənalı şəkildə poetik yaradıcılığının cövhərində xarakter və şəxsiyyət amilinin dayandığını etiraf edir. Bu da bilavasitə onu göstərir ki, şeirlərində öz həyatının bədii şəkildə inikasını verən Kamal Alışoğlunu pedaqoq-alim A. Eminov da məhz bu prizmadan baxaraq esse halında monoqrafik müstəvidə canlandırmaqla çox düzgün yol tutmuşdur və bu yolla Kamal müəllimin "Əllərindəki" – qələmində əksini tapan "tale yazısı"nı-həyat yolunu doğru-dürüst çatdırmağa nail olmuşdur!... Falçıların hər kəsin əlindən (əl cizgilərindən) əlimizin –ovcumuzun içində xətlərdə cizgilərdə) "oxuduqları" tale yazısını K.Alışoğlunun əlindəki qələmi səssizcə misraların qulağına pıçıldamış, həmin pıçıltıları isə intuitiv duyğunun hesabına eşidən A.Eminov da bu yazıların sirlərini alim-pedaqoq ustalığı ilə bizlərə nəql etmişdir. Amma bir el deyimimiz də var: "Hər kəsin taleyi öz əlindədir". Bəlkə, bu da xalq hikməti vasitəsilə bizlərə ötürülən bir ezoterik bilgidir ki, taleyimizin proqnostik yazısının öz əlimizdə olduğunun fərqinə varaq. Ya da ki, çoxlarının bu deyimin mənasını başqa cürə yozdıqları kimi : hər kəs öz taleyini öz əlləri ilə (əslində, əməlləri, hərəkətləri, ağlı, düşüncəsi vasitəsilə) icra edib müəyyənləşdirir. Nə bilim vallah, elə də olar, belə də...

***Şakir ALBALIYEV,***
***filologiya üzrə fəlsəfə doktoru***